Heydər Əliyev - 101

UOT 94(479.24)

NURU MƏMMƏDOV
tarix elmləri doktoru,
Bakı Dövlət Universitetinin professoru,
respublikanın əməkdar müəllimi
mamedov_nuru@inbox.ru

PREZİDENT İLHAM ƏLİYEVİN SİYASƏTİ: GÜCLÜ AZƏRBAYCAN, DAYANIQLI SABİTLİK VƏ DAVAMLI İNKİŞAF

DOI: https://doi.org/10.36719/2708-065X/105/39-48

Məqalədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə qazanılan fundamental uğurlar şərh edilir. Göstərilir ki, dahi rəhbər Heydər Əliyev məktəbinin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan Respublikası daxili və xarici siyasətdə böyük nailiyyətlər qazanmış, dayanıqlı sabitlik və davamlı inkişafı ilə güclü və qüdrətli dövlətə çevrilmişdir.

Açar sözlər: Prezident İlham Əliyev, müstəqil Azərbaycan, sosial inkişaf, faktlar, iqtisadiyyat, mili maraqlar.

Giriş. 2024-cü il Azərbaycan xalqının tarixinə uğurlu il kimi daxil oldu. Fevralın 7-də respublikamızda keçirilən növbədənkənar prezident seçkilərində 7 namizədin içərisində mütləq səs çoxluğu ilə - 92,12 faizlə İlham Əliyev 5-ci dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu seçkilər bir daha onu göstərdi ki, Azərbaycan xalqı düzgün seçim etdi, Azərbaycanın bugünkü müstəqilliyinin möhkəmləndirilməsində əvəzsiz rolu və xidmətləri olan, böyük dövlət xadimi İlham Əliyevə səs verdi. İlham Əliyevin Prezident seçilməsi böyük tarixi qələbə oldu, Azərbaycanın gələcək inkişafına təkan verdi. Seçkilər xalqımızın İlham Əliyevə sonsuz inamını təsdiq və sübut etdi. Seçkilər bir daha onu əyani şəkildə bütün dünyaya sübut etdi ki, xalq Prezident İlham Əliyevin apardığı daxili və xarici siyasəti bəyənir, dəstəkləyir və müdafiə edir. Çünki bu siyasət düzgün siyasətdir, xalqımızın ümummilli maraqlarını təmin edən siyasətdir. Bu seçkilər eyni zamanda Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasının qələbəsi idi. Hələ 2018-ci il aprelin 18-də andiçmə mərasimində Prezident İlham Əliyev demişdir: "...Mən 2003-cü il prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən Ulu Öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm... Biz bu gün Ulu Öndərin yolu ilə gedirik..." [3]. Bu seçkilər xalq-iqtidar birliyini bütün dünyaya sübut etdi. Prezident İlham Əliyevin dediyi kimi, bu seçkilərdə göstərilən həmrəylik cəmiyyətimizi bir qaya kimi möhkəmləndirir.

Bu gün müstəqil Azərbaycan xalqının şərəfli tarixində yeni dövr başlayır. Prezident İlham Əliyevin dediyi kimi, "biz bu dövrə alnımız açıq, üzümüz ağ başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq...". Növbədənkənar Prezident seçkiləri görkəmli dövlət xadimi İlham Əliyevin yüksək nüfuzunu bir daha sübut etdi. Milli maraqlara əsaslanan daxili və xarici siyasət kursunu, düzgünlüyünü, ölkəmizin sosial-iqtisadi və hərbi-siyasi inkişaf strategiyasını, icra mexanizminin dünya arenasında böyük mövqeyini təsdiq etdi. Andiçmə mərasimində proqram xarakterli çıxış etdi. Bu tarixi çıxışında dedi: " 2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçiləndə əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə xalqın yüksək etimadını doğrultmağa çalışacağam" [2]. Bəli, son 20 ildə bütün strateji vəzifələr yerinə yetirildi, xalqın sevgi dolu istək və məhəbbətini qazandı, millətin tarixində Zəfər dolu Qələbə tarixi yazdı, adını Qızıl hərflərlə tariximizə yazdı İlham Əliyev.

Müstəqil Azərbaycanın quruculuq və inkişaf salnaməsinin ən parlaq dövrü olan 2003-2023-cü illər xalqımızın dövlətçilik tarixində və beynəlxalq aləmdə qazandığı fundamental nailiyyətlərə görə Qızıl dövrü təşkil edir.

Bu gün Heydər Əliyev mənəvi-siyasi irsinin layiqli davamçısı İlham Əliyev dövlət başçısı kimi Prezident seçildiyi ilk gündən Azərbaycanın sosial-iqtisadi, siyasi-mədəni, hərbi və bütün sahələrinin inkişaf strategiyasını hazırlamış və mərhələ-mərhələ onun həyata keçirilməsini reallaşdırmışdır.

Bu gün müstəqil Azərbaycanın güclü və qüdrətli dövlətə çevrilməsi, Cənubi Qafqazda lider dövlət olması məhz Prezident İlham Əliyevin apardığı fədakar daxili və xarici siyasətin, uğurlu diplomatiyanın bariz nəticələridir.

Heydər Əliyevin möhkəm və sarsılmaz təməllər üzərində qurub yaratdığı Müstəqil Azərbaycan İlham Əliyev tərəfindən daha da inkişaf etdirilərək Cənubi Qafqazda lider dövlətə çevrilmişdir. Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti ölkənin sosial-iqtisadi, hərbi-siyasi problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmiş, qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün səmərəli üsul və vasitələrin seçilməsinə əlverişli şərait yaratmışdır. Azərbaycanın sosial-iqtisadi inkişafının əsas istiqamətləri İlham Əliyevin 2003-2023-cü illərdə imzaladığı çoxsaylı fərmanlarda, sərəncamlarda və dövlət proqramlarında öz əksini tapmışdır.

2003-cü il oktyabrın 1-də prezident seçkiləri ərəfəsində ***Heydər Əliyev*** Azərbaycan xalqına müraciət etdi. Bu müraciət tarixi bir sənəd kimi xalqımıza, seçicilərə ünvanlanmışdı. Prezident ***Heydər Əliyev*** dəfələrlə - xalqımızın ağır və mürəkkəb vaxtlarında müraciətlər etmişdir. Ancaq bu müraciətdə Ulu Öndər öz düşüncələrini xalqla bölüşür və qiymətli tövsiyələrini bildirirdi. Bu tarixi müraciətdə qeyd edilirdi ki, ömrünün 60 ilini xalqına xidmət edən, 34 ilini Azərbaycana rəhbərlik edən ***Heydər Əliyev*** doğma xalqına dəyərli məsləhətlərini verir. "Azərbaycan mənim canımdır, ürəyimdir, nəfəsimdir" deyən Ulu Öndərin səhhətində yarandığı problemlərlə əlaqədar prezidentliyə namizədliyini İlham Əliyevin xeyrinə geri götürdüyünü elan edir. Müraciətdə deyilir: ***"... qarşıdan gələn prezident seçkilərində namizəd, mənim siyasi varisim İlham Əliyevi dəstəkləməyə çağırıram.... İnanıram ki, mənim axira çatdira bilmədiyim taleyüklü məsələləri.... Sizin köməyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümid bəsləyirəm...***" [1]. Bəli, bu müraciət tarixi bir müraciət idi və Azərbaycan xalqı düzgün seçim edib İlham Əliyevə səs verdi, onu prezident seçdi.

Dahi rəhbər Heydər Əliyev ölkəmizin bütün istiqamətlər üzrə əsas inkişaf strategiyasını müəyyən etmiş və onu həyata keçirmişdir. Prezident İlham Əliyevin dediyi kimi, "…o, öz həyatını Azərbaycan xalqına həsr etmiş..., Azərbaycanın inkişafı üçün çox böyük fədakarlıq göstərmişdir" [4].

2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Prezident İlham Əliyevin imzaladığı Sərəncamda deyildiyi kimi, "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir". Müstəqil Azərbaycan tarixində 1993-2003-cü illər Heydər Əliyev dövrü kimi, 2003-2023-cü illər isə prezident İlham Əliyev düşdü kimi daxil olmuşdur.

Əgər dərindən araşdırsaq hər kəsə gün kimi aydın olar ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu siyasət nəticəsində son 20 ildə ölkəmiz xeyli güclənmiş və yeni-yeni inkişaf strategiyasını istiqamətləndirən dərin və köklü islahatlar həyata keçirilmişdir. Bununla da tarixi baxımdan bu inkişaf dialektikası sanki ardıcıl davam edərək irsən daha yüksək müvəffəqiyyətlər qazanılır. Bugünkü güclü Azərbaycanın daxili və beynəlxalq uğurları dediklərimizə sanballı sübutlardır.

Azərbaycanın son illər davamlı və dayanıqlı iqtisadi inkişafı siyasi müstəqilliyi daha da möhkəmləndirilmiş, beynəlxalq nüfuzu xeyli yüksəlmişdir.

İlham Əliyev görkəmli dövlət xadimi kimi ölkəmizin inkişaf strategiyasının bütün istiqamətlərini müəyyənləşdirən aydın və dəqiq proqram vəzifələrini həyata keçirməyi bacaran ölkə rəhbəri kimi xalqın arzu və istəklərini, onun iradəsini ifadə edən dövlət başçısıdır. İlham Əliyev ümumxalq sevgisi qazanaraq xalqın siyasi və mənəvi rəhbəri olmuş, milyon-milyon insanların ürəyində özünə əbədi məhəbbət yaratmış, əbədi heykəl ucaltmışdır. Torpaqlarımızın 30 illik işğalının ən çətin vəziyyətində həm ölkəmizin sosial-iqtisadi və hərtərəfli inkişafı təmin edildi, həm güclü Azərbaycan ordusu yaradıldı, həm ölkəmizin beynəlxalq nüfuzu yüksəldi və həm də sərrast və konkret düzgün siyasət aparılaraq erməni işğalına son qoyuldu. Çağdaş tariximizdə ümumxalq sevgisi və məhəbbəti qazanaraq dünyada çox böyük hörmət və məhəbbət qazandı. ***Adını qızıl hərflərdə şərəfli tariximizə yazdı.***

Prezident İlham Əliyev andiçmə mərasimində etdiyi parlaq nitqində ölkəmizin və dövlətimizin

qarşısında duran strateji vəzifələri aydın və konkret müəyyənləşdirdi. Qeyd etdi ki, yeni dövrdə əsas vəzifə 1) güclü iqtisadiyyata nail olmaq; 2) güclü ordu formalaşdırmaq və hərbi sənayeni daha da inkişaf etdirmək; 3) əhalinin sosial rifahının yaxşılaşdırılmasını təmin etmək; 4) texnoloji innovasiyaları və güclü sənaye potensialını yaratmaq; 5) güclü xarici siyasət diplomatiyasını daha da genişləndirmək; 6) Qarabağda və Şərqi Zəngəzurda bərpa-quruculuq işlərini ardıcıl olaraq davam etdirmək. Bu və digər vəzifələr yeni dövrün aktual vəzifələridir və ölkəmizin güclü inkişafının "yol xəritəsi"dir.

Prezident İlham Əliyevin geniş ictimai-siyasi və dövlət quruculuğu sahəsindəki yorulmaz fəaliyyəti bu vaxta qədərki Azərbaycan gerçəkliyinin canlı ensiklopediyasıdır. ***2003-cü ildən bəri ölkəmizi idarə edən İlham Əliyev qısa zaman kəsiyində nəinki Azərbaycanı inkişaf etdirə bildi, eyni zamanda Azərbaycan sivilizasiyalı dövlətlər səviyyəsinə yüksələ bildi. Azərbaycanın 2003-cü ildən bəri yaşanan dövrü xalqımızın tarixinə əbədi həkk olunmuşdur***. Əgər biz Vətən tariximizə nəzər salsaq, onun hər hansı bir ömür kitabını vərəqləsək, o zaman görərik ki, İlham Əliyev sözün əsil mənasında ümumxalq məhəbbəti qazanan dahi dövlət rəhbəri olmuşdur. 2018-ci ilin aprelində keçirilmiş Prezident seçkiləri bir daha sübut etdi ki, İlham Əliyevin apardığı siyasət Azərbaycan xalqı tərəfindən bəyənilir və müdafiə edilir. Çünki bu siyasət dövlətçilik və azərbaycançılıq siyasətidir, millimənəvi dəyərlərimizə söykənən siyasətdir, xalqımızın milli maraqlarını ifadə edən siyasətdir.

Tarix boyu bəşəriyyətin parlaq zəkalarını və dövlət başçılarını düşündürən, öz ölkəsinin və xalqının inkişafını, müstəqil dövlətinin daha da möhkəmlənməsini təmin edən strateji planlar və proqramlar olmuşdur. Çünki hər bir müstəqil dövlətin sosial-iqtisadi və hərbi-siyasi cəhətdən güclü inkişafı onun möhkəmlənməsinin etibarlı qarantıdır və xalqın firavan həyat keçirməsinin rəhnidir. Bu baxımdan respublikamızın hərtərəfli inkişafına biz hansı prizmadan yanaşsaq, görərik ki, dövlətimiz həqiqətən nəinki xeyli inkişaf edib, eyni zamanda olduqca güclənib. Həm iqtisadi cəhətdən, həm sosial cəhətdən və həm də hərbi cəhətdən. Son illərdə ölkədə möhkəm sabitliyin qorunması, iqtisadi dinamikliyin təmin edilməsi, insan kapitalının inkişaf etdirilməsi və güclü Azərbaycan dövlətinin daha da möhkəmləndirilməsinin yeni reallıqlarda davam etdirilməsi və bu istiqamətdə sistemli dövlət tədbirlərinin həyata keçirilməsi respublika iqtisadiyyatının inkişafına öz töhfəsini vermişdir.

Bu gün Azərbaycanın sosial-iqtisadi və ictimai-siyasi həyatının bütün sahələrində qazanılmış böyük uğurlar, ölkəmizin iqtisadi inkişafında mühüm nailiyyətlər, beynəlxalq aləmdə olan nüfuzunun artması Prezident İlham Əliyevin adı ilə əlaqədardır. ***Azərbaycanın güclü bir dövlət kimi möhkəmlənməsində İlham Əliyevin rolu və xidmətləri misilsizdir***. Azərbaycanın daxili və xarici siyasətdə qazandığı fundamental uğurlar, ölkəmizin beynəlxalq mövqeyinin getdikcə güclənməsi, beynəlxalq təşkilatlarda söz sahibi olması, böyük nüfuza malik olması məhz İlham Əliyev şəxsiyyətinin dahiliyi ilə əlaqədardır.

Dünyanın bir çox görkəmli dövlət başçıları İlham Əliyev şəxsiyyətinə, İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət proqramlarının uğurlu nəticələrinə yüksək qiymət verirlər. Məsələn, ***ABŞ Prezident C.Baydenin*** İlham Əliyevə ünvanlandığı məktubda deyilir: Mən Azərbaycanın tam potensialının və iqtisadiyyatın şaxələndirilmiş inkişafında, enerji mənbələrinə investisiyaların artırılmasında, iqlim dəyişikliyinə qarşı mübarizədə, qlobal məqsədlərə verdiyiniz töhfədə, xalqının yaşayış standartlarının yüksəldilməsi istiqamətində Sizin (yəni İlham Əliyevin) davamlı addımlarınızı alqışlayıram. ABŞ Sizinlə davamlı tərəfdaşlıq və əməkdaşlığımıza sadiqdir. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin sabitləşməsinə kömək etməkdə həlledici rol oynayır." ***AŞPA Prezidenti Ş.Mişel*** demişdir: "Prezident İlham Əliyev zəmanəmizin ən görkəmli dövlət xadimidir. İlham Əliyev ən mürəkkəb geosiyasi şəraitdə Azərbaycanda sabitliyi qoruyub saxladı, ölkəsini möhkəmləndirdi və inamla irəli apardı" [17]. ***Türkiyə Respublikasının Prezidenti R.T.Ərdoğan*** demişdir: "Azərbaycanın həm hərbi, həm diplomatiya, həm 44 günlük müharibədə əldə etdiyi uğurlarda ən böyük paylardan biri əziz qardaşım, cənab İlham Əliyevə aiddir" [14]. ***Rusiya Federasiyasının Prezidenti V.V.Putin*** demişdir: "İlham Əliyevin həyatının əsas məqsədi ölkəsini, Azərbaycan xalqını xoşbəxt görməkdir...".***Belarus Prezidenti A.Lukaşenko*** demişdir: "Sizin rəhbər istedadınız sayəsində milli lider kimi Siz Azərbaycanın səmərəli iqtisadi inkişaf modelini həyata keçirməklə beynəlxalq nüfuzunu möhkəmləndirmisiniz" [15].

Prezident İlham Əliyev 2021-ci il dekabrın 28-də İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə toplantısında çıxışında demişdir ki, son 18 ildə Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf etmişdir. Son

illərdə pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq dərin islahatlar aparılmışdır. Azərbaycan dünyanın 190 ölkəsi arasında 28-ci yerdə qərarlaşıb. Azərbaycan iqtisadiyyatına son 18 ildə 180 milyard dollar sərmayə yatırılıb. Bizim valyuta ehtiyatlarımız artaraq 52 milyard dollardan çoxdur. 2021-ci il dekabrın 31-də İlham Əliyev xalqımızı yeni -2022-ci il münasibətilə təbrikində demişdir ki, bu il (yəni 2021-ci il) bizim valyuta ehtiyatlarımız 2,2 milyard dollar artıb. Deməli, bizim valyuta ehtiyatlarımız 2022-ci ilin əvvəllərinə olan rəsmi məlumata görə 54,2 milyard dollar təşkil edir [6]. Belə artım ardıcıl olaraq çoxalır.

Azərbaycan uzunmüddətli strategiya üzrə dünyada 10-cu yerdə, ölkə rəhbərliyinin islahatlara sadiqliyi sahəsində isə 5-ci yerdə qərarlaşıb. Dünya Bankı Azərbaycanı 20 ən islahatçı ölkə siyahısına daxil etmişdi [5].

Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş və ötən illərdə mükəmməl səviyyədə icra edilən milli iqtisadiyyatın sektorları üzrə yeni islahatlar modeli güclü Azərbaycan dövlətinin inkişaf strategiyasının həyata keçirilməsini təmin etmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə regionların inkişaf proqramına dair 4 dəfə Dövlət Proqramı qəbul edilmişdir. Bu dövlət proqramları ilə ölkəmizin bütün regionları yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Çünki dayanıqlı və davamlı inkişaf üçün hərtərəfli şərait yaradılmış, sənayenin və kənd təsərrüfatının sürətlə inkişaf etməsi məqsədilə bütün potensial ehtiyat imkanlarından istifadə etmək istiqamətləri müəyyənləşdirilimiş, dövlət strukturları bir mexanizm kimi hərəkətə gətirilmişdir. Bununla da Prezident İlham Əliyev Azərbaycanın gələcək ınkişafını müəyyən edərək özünün sosial-iqtisadi platformasının başlıca hədəflərini müəyyənləşdirmişdir. Bu proqramların hər biri ölkəmizdə şəhər, kənd, qəsəbələrin simasının kökündən dəyişməsinə, sosial-iqtisadi inkişaf potensialının artmasına, əhalinin sosial-mədəni rifahının yaxşılaşmasına ciddi təsir etmişdir.

Bu Dövlət proqramları respublikanın bütün şəhər, rayon, kəndlərini əhatə edir, iqtisadiyyatın, sənayenin, kənd təsərrüfatının, maliyyə-kredit sisteminin, infrastruktur sahələrin, yəni həyatın bütün sahələrinin sürətli inkişafını nəzərdə tutur.

2003-cü ildən bu günə qədər Azərbaycanın rəhbəri olan Prezident İlham Əliyev ölkəmizin sosial-iqtisadi inkişafının strategiyasının müəyyən edilməsində bütün məsələləri və problemləri nəzərə alaraq Dövlət Proqramları qəbul edilərkən ilk növbədə vətəndaşların və ölkə əhalisinin sosial vəziyyətinin yaxşılaşdırılmasına, ayrı-ayrı rayonların, hətta ən ucqar kəndlərin də sosial və iqtisadi inkişafı məsələlərinə müntəzəm olaraq diqqət verilmiş və bu siyasət ardıcıl davam etdirilir. Ölkə prezidenti kimi İlham Əliyev Azərbaycanın hər tərəfini, bütün bölgələri diqqətdə saxlayaraq hər yerə və hər vətəndaşa qayğı göstərir. Böyük dövlət vəzifələrinin daxili və beynəlxalq məsələlərin çoxluğuna baxmayaraq Prezident İlham Əliyev tez-tez respublikanın bölgələrinə səfərlər edir, əhali ilə görüşür, söhbətlər edir, hər bir vətəndaşı diqqətlə dinləyir və qanun çərçivəsində onların problemlərinin həllinə dair göstərişlər və tapşırıqlar verir. Təkcə ötən 2021-ci ildə İlham Əliyev Azərbaycanın müxtəlif bölgələrinə 47 dəfə səfər etmişdir [7]. Hər bir səfər zamanı respublikanın bölgələrinin sosial-iqtisadi inkişafına dair Prezidentin ehtiyat fondundan vəsait ayrılmasına dair Sərəncamlar imzalamışdır. Bu da böyük diqqət və qayğının nəticəsidir.

2019-cu il yanvarın 29-da regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfransda prezident İlham Əliyev demişdir: "...2003-cü ildə demişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, ilk növbədə, regionların inkişafı ilə məşğul olacağam, bölgələrdə olan problemlərin həlli işində öz səylərimi göstərəcəyəm..." [8]. Bəli, doğrudan da, 2004-cü ilin fevral ayında birinci proqramın qəbul olunduğu gündən başlayaraq respublikamızın bütün rayon və kəndlərinin sosial və iqtisadi inkişafına diqqət və qayğının artması nəticəsində hazırda bütün sahələrdə böyük nailiyyətlər qazanıldı, rayon və kəndlərdə sosial obyektlər yaradıldı, yeni-yeni iş yerləri açıldı. əhalinin isə sosial vəziyyəti yaxşılaşdı, maddi və mənəvi güzəran halı yüksəldi. Son 15 ildə maaşlar 7 dəfə, pensiyalar 9 dəfə artırılmışdır. Cənab Prezidentimizin dediyi kimi, bu siyasət uğurla davam etdirilir [8].

Cənab Prezidentimizin dediyi kimi, Azərbaycan iqtisadiyyatı bu gün dayanıqlı və davamlı iqtisadiyyatdır və gündə-günə dinamik inkişaf edir. Ona görə ki, əgər müasir dünyada müxtəlif proseslər, ərazi və məhəlli müharibələr gedirsə, ancaq Azərbaycan sabitlik və təhlükəsizlik məkanıdır. İlham Əliyevin dediyi kimi, sabitlik olmadan heç bir ölkə inkişaf edə bilməz. Bu, aksiomadır. Sabit-

lik hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Azərbaycanda isə sabitliyin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və eyni zamanda bizim apardığımız siyasətdir. Çünki bizim siyasətimiz milli maraqlara söykənir.

İlham Əliyevin prezidentliyi dövründə Azərbaycanın əldə etdiyi sosial-iqtisadi, hərbi-siyasi və milli-mənəvi uğurlar istər ölkə daxilində və istərsə də beynəlxalq müstəvidə yüksək qiymətləndirilmişdir. Dövlət başçısının həyata keçirdiyi qətiyyətli və ardıcıl siyasət nəticəsində ölkənin iqtisadi və sosial infrastrukturunda yeni-yeni texnoloji nailiyyətlər qazanılmış, hətta müxtəlif təyinatlı müasir texnikalar istehsal edən qüvvətli ölkəyə çevrilmişdir, beynəlxalq aləmdə söz sahibi olan lider dövlət olmuşdur.

Son 20 ildə ölkədə bərqərar olan dayanıqlı sabitlik güclü Azərbaycan dövlətinin inkişafını təmin etmişdir. 2 milyondan çox yeni iş yeri yaradılmış, 3272 məktəb tikilib təmir edilmiş, 640 tibb müəssisəsi, 44 olimpiya mərkəzi yaradılmış, 6650 şəhid ailələrinə evlər verilmiş, əhalinin sosial vəziyyətində böyük irəliləyişlər olmuşdur. Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda dünyanın 148 ölkəsi arasında Azərbaycan daha 2 pillə yüksələrək 35-ci yerdə qərar tutmuşdur. Bu, o deməkdir ki, Azərbaycan planetimizdə olan hər 4 ölkədən 3-nü geridə qoyub. MDB məkanında isə liderliyini qoruyub saxlayıb [9].

İqtisadiyyatın rəqabət qabiliyyəti indeksinə görə Azərbaycan hətta İtaliya, Rusiya, İndoneziya, Hindistan, Türkiyə, CAR kimi ölkələrdən irəlidədir. Müqayisə üçün deyək ki, qlobal rəqabət reytinqində Rusiya 38-ci, Qazaxıstan 57-ci, Gürcüstan 67-ci, Ermənistan isə 73-cü sırada dayanıb [9].

İqtisadi siyasət. Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikada həyaya keçirilən uğurlu daxili və xarici siyasət, iqtisadiyyatın dinamik və dayanıqlı inkişafı, onun davamlı artım sürəti, ölkə daxilində maliyyə resurslarının artırılması, bir çox strateji vəzifələrin həyata keçirilməsi və prioritet hədəflərə nail olunması beynəlxalq mütəxəssislər tərəfindən də yüksək qiymətləndirilmişdir. Ölkə daxilində həyata keçirilən dərin və köklü islahatlar şaxələnmiş iqtisadiyyatın inkişafını təmin etmişdir.

Prezident seçildiyi ilk günlərdən İlham Əliyev iqtisadiyyatın hərtərəfli inkişafına xüsusi diqqət vermiş və bu prioritet vəzifənin həyata keçirilməsinin digər sahələrin də inkişafına həlledici təsirini vurğulamışdır. Çıxışlarında dəfələrlə demişdir ki, iqtisadiyyatın inkişafı digər bütün sahələrin inkişafının təməlini təşkil edir.

Son 20 ildə Azərbaycanın iqtisadi inkişafında qazanılan fundamental nailiyyətlər mühüm qələbələr dövrü kimi dəyərləndirilməlidir. Faktlara müraciət etsək, bir daha dediklərimizi təsdiq etmiş olarıq. Məsələn, əgər 2003-cü ildə respublikanın ümumi daxili məhsulun dəyəri 7,1 milyard manat idisə, 2023-cü ildə bu rəqəm 133,7 milyard man. təşkil edirdi, yəni 17 dəfə artmışdır. Dövlət büdcəsinin gəlirləri 2003-cü ildə əgər 1 milyard 221 milyon manat idisə, 2023-cü ildə bu rəqəm 34 milyard manata yaxın idi. Valyuta ehtiyatları 2003-cü ildə 1,6 milyard ABŞ dolları idisə, hazırda 67 milyard dollardır. 20 il ərzində ölkə iqtisadiyyatına qoyulan investisiyaların ümumi həcmi 300 milyard ABŞ dolları təşkil edib [18]. Ölkəmizin valyuta ehtiyatları artaraq hazırda 69,6 milyard ABŞ dolları təşkil edir [2].

Ölkə iqtisadiyyatının inkişafı 30 illik işğaldan azad edilmiş doğma Qarabağ bölgəsində bərpa işlərinə xeyli vəsait ayrılmasına maddi təminat yaratmışdır. Qısa müddətdə Qarabağda bərpa işlərinə 7 milyard ABŞ dolları vəsait ayrılmışdır [18].

Son 20 ildə Azərbaycanın hərbi müdafiə xərcləri də 35 dəfə artmışdır. 2003-cü ildə müdafiə xərcləri 150 milyon ABŞ dolları idisə, 2023-cü ildə bu rəqəm 5,3 milyard dollar təşkil etmişdir [19].

İqtisadiyyatın mühüm sahəsi olan kənd təsərrüfatı da son 20 ildə xeyli inkişaf etmişdir. Həmin dövrdə ölkənin aqrar sahəsinin inkişafına mühüm diqqət verilmişdir. 2003-cü ildə əkin sahələri 1,22 milyon hektar təşkil edirdisə, bu rəqəm 2022-ci ildə 1,62 milyon hektar olub. Kənd təsərrüfatında istehsalın dəyəri 1 milyard 450,5 milyon manat olubsa, 2022-ci ildə bu göstərici 10 milyard 984,2 milyon manata çatıb [18].

Sosial siyasət. Prezident İlham Əliyev ilk gündən ölkə əhalisinin maddi və mənəvi güzəran halının yaxşılaşmasına, sosial yönümlü tədbirlərin həyata keçirilməsinə və ardıcıl olaraq bu istiqamətdə dövlət qərarlarının qəbul edilməsinə xüsusi diqqət vermiş və həqiqətən qarşıya qoyulan hədəflərə nail olunmuşdur. Əhlinin sosial təminatı, xalqın güzəran halının yaxşılaşdırılması hər il ardıcıl olaraq

yüksəldilmişdir. Konkret faktlar dediklərimizi təsdiq edir:

Son 20 ildə ölkə əhalisinin sosial həyat səviyyəsi xeyli yaxşılaşmışdır. Minimum əmək haqqı 2003-cü ildə 9 manat idisə, 2023-cü ildə 345 manat olmuşdu, yəni təqribən 38 dəfə artmışdır. Pensiya təminatı 18 dəfə, minimum pensiya isə 14 dəfə yüksəlmişdir. Minimum pensiya 2003-cü ildə 20 manat idisə, bu gün 280 manata çatıb. Orta pensiya 500 manatdan çoxdur. Orta əmək haqqı 940 manatdır [2]. Yoxsulluq səviyyəsi 2003-cü ildə 50 faiz təşkil edirdisə, hazırda 5 faizə qədər azalıb [19].

Ümumiyyətlə, 2003-2023-cü illərdə dövlətin sosial təminat xərcləri 20 dəfədən çox artıb. 2003-cü ildə dövlət büdcəsində sosial xərclərin həcmi 678,2 milyon manat idisə, 2023-cü ildə bu rəqəm 12 milyard manata çatdırılıb [19].

Son 20 ildə 2 milyondan artıq yeni iş yerləri yaradılmışdır.

Beynəlxalq göstərici rəqəmlər. Ölkə iqtisadiyyatının dinamik və davamlı inkişafı beynəlxalq ekspertlərin də diqqətini cəlb etmiş və bunu yüksək qiymətləndirmişlər. Faktlar və rəqəmlər bir daha sübut edir ki, Azərbaycan son 20 ildə fantastik dərəcədə inkişaf etmiş, fundamental nailiyyətlər qazanılmışdır. Beynəlxalq ekspertlər və beynəlxalq müşahidəçilər də ölkənin sürətli inkişafını qeyd edirlər. Dünya bankının "Doinq Business" hesabatına görə Azərbaycan hələ 2009-cu ildə dünyanın "islahatçı dövləti" kimi qiymətləndirilib. 2020-ci ildə həmin hesabat sənədində Azərbaycan 191 ölkə arasında 28-ci yerdə qərarlaşıb, dünyanın ən islahatçı 10 ölkəsindən biri olub. Azərbaycan dünya İqtisadi Forumunun inkişaf indeksi üzrə inkişaf etməkdə olan 74 ölkə arasında 3-cü, "Qlobal Rəqabətlilik İndeksi"ndə 141 ölkə arasında 58-ci, 2020-ci il hesabatında isə 144 ölkə arasında 52-ci yerdə mövqe tutub. Ölkəmiz "İqtisadi Azadlıq İndeksi 2021" hesabatında 178 ölkə arasında 37-ci yerdə qərarlaşıb [19].

Beynəlxalq Enerji diplomatiyası sahəsində uğurlar. Son 20 ildə Azərbaycanın sürətli və dayanıqlı inkişafı imkan yaratdı ki, beynəlxalq enerji diplomatiyası sahəsində də uğurlara imza atsın. Məhz Prezident İlham Əliyevin rəhbərliyi və təşəbbüsü ilə Azərbaycan beynəlxalq enerji diplomatiyası sahəsində mühüm nailiyyətlər qazandı. faktlara müraciət edək:

1) 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan boru kəmərinin istifadəyə verilməsi Azərbaycanın iqtisadi inkişafı üçün maliyyə aktivlərini hərəkətə gətirdi;
2) 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi;
3) Enerji diplomatiyasında növbəti uğur 2018-ci ildə Trans-Anadolu (TANAP) və
4) 2020-ci ildə Trans-Adriatik (TAP) qaz kəmərlərinin çəkilib istifadəyə verilməsi oldu.

Bu layihələrin reallığa çevrilməsinə nail olan Prezident İlham Əliyevin təşəbbüsü ilə:

5) Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi;
6) 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolu xətti
7) Ələt Beynəlxalq Dəniz Ticarət Limanı;
8) Şimal-Cənub, Şərq-Qərb nəqliyyat qovşaqları [19] ölkəmizin iqtisadi qüdrətinin və beynəlxalq mövqeyinin daha da möhkəmlənməsində müstəsna rol oynadı. Beləliklə, həyata keçirilən belə uğurlu iqtisadi siyasət 2003-2023-cü illər ərzində ölkə iqtisadiyyatının simasını bütövlükdə dəyişdi və beynəlxalq aləmdə nüfuzunu xeyli gücləndirdi.

Prezident İlham Əliyevin dediyi kimi, bu gün Azərbaycan dünya miqyasında nəqliyyat mərkəzi kimi qəbul edilir.

Hərbi sahədə uğurlar. Andiçmə mərasimində Prezident İlham Əliyev bir daha vurğulamışdır ki, növbəti illərdə qarşımızda duran əsas vəzifələrdən biri Ordumuzun, Silahlı Qüvvələrimizin daha da gücləndirilməsidir. "Bu gün Azərbaycan Ordusu 2020-ci ildəkindən daha da güclüdür və cəmi bir neçə saat davam edən antiterror əməliyyatı bunun bariz nümunəsidir" [2].

Azərbaycan iqtisadiyyatının yüksək templərlə inkişafı hərbi qüdrətimizin və müdafiə sənayesinin güclü artımına və beləliklə, ordu quruculuğuna böyük təsir göstərir. Bu gün Azərbaycan ordusu müasir beynəlxalq standartlara cavab verən, Avropa və NATO orduları sırasında özünə yer tutmağı bacaran güclü və qüdrətli ordudur. Son 15 ildə müdafiə sahəsində hərbi xərclərimiz 15 dəfə artmışdı. Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan ordusu dünyanın güclü orduları sırasındadır. Güclü ordu yaratmaq üçün güclü iqtisadiyyata malik olmaq lazımdır. Məhz güclü iqtisadiyyata rəğmən güclü də ordumuz vardır. Azərbaycanın hərbi gücü gündən-günə qüvvətlənir. Azərbaycan ordusu ən müasir silahlarla, modernləşdirilmiş döyüş texnikası ilə, 300 km qət edən yeni və müasir raket silahları ilə, çoxlu hərbi təyinatlı silah məhsulları istehsal edən müasir müdafiə sənayesi ilə təmin və təc-

hiz edilmişdir. Azərbaycanın hərbi gücünü və qüdrətini Silahlı Qüvvələrimizin 100 illiyi münasibəti ilə 2018-ci il iyununda olan hərbi parad əyani formada nümayiş etdirdi. Həmin paradın açılışı zamanı giriş nitqində Ali Baş Komandan, ***Prezident İlham Əliyev demişdir: "Bu gün Azərbaycan Ordusu dünyanın güclü orduları sırasındadır. Ordu quruculuğu əsas vəzifəmizdir... Azərbaycanın hərbi zavodlarında 1200 adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur...***" [10]. Azərbaycan Ordusunun gücünü düşmən əsgərləri də gördü. 2016-cı ilin aprel döyüşləri, 2018-ci ilinin yazında Naxçıvan Muxtar Respublikasının Şərur rayonu istiqamətində ordumuzun düşmən üzərinə parlaq qələbələri və nəhayət, 44 günlük Vətən müharibəsində Ermənistan ordusunun darmadağın edilməsi, Böyük Tarixi Qələbənin qazanılması bir daha sübut etdi ki, Azərbaycan Ordusu güclüdür və işğal altında olan torpaqlarımızı azad etməyə tam hazırdır. Cənab Prezidentimizin dediyi kimi, Azərbaycanın ərazi bütövlüyü tam bərpa edildi.

Müasir Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Bu gün Azərbaycan Ordusunun maddi-texniki təchizatı, döyüş hazırlığı, peşəkarlığı və mütəxəssis kadr təminatı Prezident İlham Əliyevin rəhbərliyi və diqqəti sayəsində ən yüksək səviyyədədir. 2023-cü ildə ordumuzun hərbi büdcəsi 6 milyard 55 milyon olmuşdur.

Azərbaycanın yüz ildən artıq zaman kəsiyindəki ***dövlətçilik tarixinə*** baxanda Qarabağ Zəfərinin nə qədər böyük əhəmiyyətli hadisə olduğunu görürük. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı bu rəşadət əbədiyyətə qədər türk dünyasının qürur mənbəyi olacaq. Bu tarixi qələbə ümumilikdə islam-türk toplumunun ***dövlətçilik təntənəsidir***.

İlham Əliyev 44 günlük Vətən müharibəsində qəbul etdiyi qətiyyətli qərarlarla mahir diplomat, nəhəng siyasətçi olmaqla bərabər, sərrast hərbçi qabiliyyətinə malik olduğunu bütün dünyaya real cəbhə nəticələri ilə nümayiş etdirdi. ***İlham Əliyev zəngin hərbi bacarığı ilə Vətən müharibəsinin gedişatına böyük töhfələr verərək tarixi Qələbəni daha da sürətləndirdi.***

Onun liderlik xüsusiyyətlərinin ən mühüm cəhətlərindən olan ***qətiyyət və cəsarət*** Vətən müharibəsinin ilk anlarından başlayaraq öz bəhrəsini verdi. Azərbaycan xalqı başda olmaqla bütün türk dünyası bu tarixi Zəfəri qazandıran Lideri hər zaman qəlbində uca tutacaq. Məşhur Türkiyə generalının dediyi kimi, Prezident İlham Əliyev öz dövlətini, ölkəsini və xalqını yüzilliklərlə söykənən fundamental bir problemi məharətlə həll edən dövlət başçısı adını qazanıb. Ali Baş Komandan bu qabiliyyəti ilə son 20 ildə dünya ölkələrinə liderlik edən şəxslərdən biridir.

Dünyada ikinci bir dövlət yoxdur ki, ərazisinin 20 faizi işğal olunduğu halda çoxistiqamətli inkişaf yolu keçsin, dünya enerji təhlükəsizliyinin qorunmasına töhfə versin və bu vəziyyətdə də güclü, yenilməz Ordu yaradaraq ərazi bütövlüyünün bərpasına nail olsun.

İkinci Qarabağ müharibəsi olan Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinin darmadağın edilməsi və işğal altında olan şəhər və kəndlərimizin azad edilməsi, 30 illik işğala son qoyulması qəhrəman Azərbaycan ordusunun parlaq qələbələri sayəsində mümkün olmuşdur. Azərbaycan Ordusunun güclü ordular sırasında olmasını göstərən bəzi faktlara müraciət edək:

Dünyanın ən güclü orduları reytinqində Azərbaycan 52-ci yerdə, Ermənistan 96-cı yerdə qərar tutub. O cümlədən

- hava hücumu üzrə - Azərbaycan 63-cü yerdə,
  Ermənistan 86-cı yerdə
- tank üzrə - Azərbaycan 32-ci yerdə
  Ermənistan 78-ci yerdə
- dəniz gücü üzrə - Azərbaycan 78-c yerdə

Ermənistanda dəniz yoxdur [16].

Azərbaycan Ordusu hərbi gücünə görə dünya miqyasında 57-ci sırada, Cənubi Qafqazda isə 1-ci yerdədir. Həmin reytinqə görə Gürcüstan 85-ci yerdə, Ermənistan isə 94-cü yerdədir [12].

Ölkələrin hərbi gücü üzrə reytinqi tərtib edən "Global Fire Pover" 2024-cü il üzrə hesabatında Azərbaycan 145 ölkə arasında 59-cu yerdə, Gürcüstan 84-cü yerdə, Ermənistan isə 102-ci yerdə qərarlaşıb [12].

Xarici siyasət. Prezident seçildiyi ilk gündən İlham Əliyev müstəqil Azərbaycanın Heydər Əliyev tərəfindən elmi cəhətdən formalaşmış xarici siyasət proqramının bütün istiqamətləri üzrə yeni və uğurlu tədbirlərin reallaşmasına mühüm diqqət verdi və bir çox beynəlxalq dövlətlərin və təşkilatla-

rın dəstəyinə nail oldu. Azərbaycan həqiqətləri dünyada maddi qüvvəyə çevrilməyə başladı. Beynəlxalq ictimaiyyət Azərbaycanın haqlı səsini eşitməyə başladı və Ermənistanın işğalçı siyasəti haqqında məlumat bildilər. Onu da bildilər ki, Azərbaycanın 20 faiz ərazisi işğal altındadır. İşğal altında olan ərazilərimizin və Qarabağın düşməndən azad edilməsi problemlərinin həll edilməsi Prezident İlham Əliyevin apardığı xarici siyasətin başlıca prioritet vəzifələrindən biri idi. ***İlham Əliyev dəfələrlə demişdir ki, biz müstəqil dövlətin müstəqil xarici siyasətini aparırıq. Milli maraqlara tam uyğun olan xarici siyasət İlham Əliyev tərəfindən uğurla aparılır***. Beynəlxalq aləmdə böyük nüfuz və etimad qazanmış İlham Əliyevin strateji kursunun əhəmiyyəti dünya ölkələrinin dövlət və hökumət başçıları tərəfindən müdafiə edilir. Çünki bu siyasət düşünülmüş siyasətdir və bir çox qlobal problemlərin həllində mühüm əhəmiyyətə malikdir.

Prezident İlham Əliyevin apardığı xarici siyasət nəticəsində Azərbaycan bir çox beynəlxalq təşkilatların üzvüdür. 2019-cu il iyulunda olan rəsmi məlumata görə Azərbaycanın dünyanın 170-dən çox ölkəsi ilə diplomatik əlaqələri vardır. 59 ölkədə səfirliyi, 5 beynəlxalq təşkilat yanında daimi nümayəndəliyi, 9 baş konsulluğu, 11 təmsilçilik ofisi, 15 fəxri konsulluğu fəaliyyət göstərir. Ölkəmizdə isə 66 dövlətin səfirliyi, 4 baş konsulluğu, 13 fəxri konsulluğu, 22 beynəlxalq təşkilatların nümayəndəliyi var [13].

2019-cu ilin yanvarında nazirlər Kabinetinin geniş yığıncağında Prezident İlham Əliyev demişdir ki, Azərbaycan bu gün inkişaf baxımından heç kimdən, heç bir ölkədən asılı deyil. İqtisadi müstəqillik bizə imkan verir ki, müstəqil siyasət aparaq, Azərbaycan xalqının maraqlarını müdafiə edək.

Andiçmə mərasimində Prezident İlham Əliyev demişdir ki, yeni dövrdə xarici siyasət istiqamətində yeni üfüqlər açmalıyıq. xarici siyasətimizin yeni istiqamətləri üstünlük təşkil etməlidir.

Son 20 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən struktur islahatlar və dövlət tədbirləri nəticəsində dayanıqlı sabitlik yaranmış, dayanıqlı və dinamik iqtisadiyyat bərqərar olmuş, fundamental nailiyyətlər qazanılmış və bununla da güclü və qüdrətli Azərbaycan dövləti formalaşmışdır. Prezident İlham Əliyev demişdir: "Biz fəxr edirik ki, müstəqil dövlət kimi yaşayırıq, heç kimə borclu deyilik, müstəqilliyi hər şeydən üstün tuturuq, xalqımız azaddır, taleyimiz öz əlimizdədir, gözəl ölkə qurmuşuq və bundan da gözəl olacaqdır".

Bu gün Azərbaycanın hərtərəfli inkişaf strategiyası, həyata keçirilən hüquqi, demokratik və ədalətli islahatlar XXI əsrin reallıqlarında aydın görünür və bəşəri əhəmiyyətə malik dövlət siyasətidir. Bu siyasət Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi və ictimai-siyasi xadim, müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı, dahi rəhbər Heydər Əliyev siyasətinin məntiqi davamıdır. Bu siyasəti uğurla və yorulmadan davam etdirən cənab ***Prezident İlham Əliyev böyük inamla və qətiyyətlə demişdir: "Azərbaycan getdikcə güclənəcək. Biz inkişaf yolundayıq. Bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedəcək".***

Yekun nitqində Prezident İlham Əliyev böyük inamla demişdir:" Bu yeni dövr uğurla başlayır..., uğurla da davam edəcək" [2].

Nəticə. Aparılan ciddi araşdırmalar zamanı belə bir nəticəyə gəlirik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə Azərbaycan sosial-iqtisadi, hərbi-siyasi və bütün sahələrdə güclü və dayanıqlı inkişaf etmiş, beynəlxalq aləmdə mövqeyi xeyli möhkəmlənmiş və Azərbaycan dövlətçiliyinin daha da inkişaf etməsi istiqamətində fundamental uğurlara nail olunmuşdur. İlham Əliyevin müəyyən etdiyi müdrik daxili və xarici siyasəti, rəhbərlik istedadı, qətiyyətli və prinsipial mövqeyi, dəmir iradəsi və strateji baxışlar sistemi, görkəmli dövlət xadimi kimi qarşıdakı bütün hədəflərə nail olunması, zəngin həyat təcrübəsi və dövlətçilik baxışları zəngin bir məktəbdir ki, aparılan siyasət dünyanın dövlət və hökumət rəhbərləri tərəfindən bəyənilir və müdafiə edilir. Faktlar, rəqəmlər və beynəlxalq rəylər bir daha bu aksiomanı təsdiq edir ki, bugünkü modern Azərbaycan dünya miqyasında inkişaf etmiş güclü ölkələr sırasındadır. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu, 30 illik işğala son qoyuldu, ölkəmizin beynəlxalq mövqeyi daha da möhkəmləndi və xalqımızın milli lideri kimi adını şərəfli tariximizə qızıl hərflərlə yazdı. Heydər Əliyev mənəvi-siyasi irsinin layiqli davamçısı, Prezident İlham Əliyev dövlət başçısı kimi rəhbərliyə gəldiyi ilk gündən vəd etdiyi bütün strateji vəzifələri uğurla həll edə bilmiş, uzaqgörən diplomatik siyasəti ilə Azərbaycanın beynəlxalq mövqeyinin

möhkəmlənməsinə nail ola bilmiş və ölkəmizin gələcək inkişaf yollarının istiqamətlərini müəyyənləşdirmişdir. Bütün bu uğurlar müasir Azərbaycan tarixinin qızıl səhifələridir.

ƏDƏBİYYAT

1. Heydər Əliyev. Azərbaycan xalqına müraciət / "Azərbaycan" qəz, 3 oktyabr, 2003-cü il.
2. İ.Əliyev. Andiçmə mərasimində nitq / "Azərbaycan" və "Respublika" qəzetləri, 15 fevral 2024-cü il.
3. İ.Əliyev. Andiçmə mərasimində nitq / "Respublika" qəz., 19 aprel, 2018-ci il.
4. İ.Əliyev. Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş təntənəli mərasimdə nitq / "Respublika" qəz., 12 may 2019-cu il.
5. İ.Əliyev. İƏT-in XV Zirvə toplantısında nitq / "Azərbaycan" və "Respublika" qəzetləri, 29 dekabr 2021-ci il.
6. Yeni il, 2022-ci il münasibətilə Azərbaycan xalqına təbrik / "Azərbaycan və "Respublika" qəzetləri, 1 yanvar 2022-ci il.
7. İlham Əliyev. Yeni il, 2022-ci il münasibətilə Azərbaycan xalqına müraciət / "Azərbaycan" qəz., 31 dekabr 2021-ci il.
8. İ.Əliyev. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasına həsr olunmuş konfransda nitq / "Respublika" qəz., 30 yanvar 2019-cu il.
9. Azərbaycan dünyanın diqqətini çəkən daha bir mühüm əhəmiyyətli hadisə ilə yadda qaldı / "Azərbaycan" qəz., 29 sentyabr 2017-ci il.
10. İ.Əliyev. Silahlı Qüvvələrimizin 100 illiyi münasibətilə nitq / "Azərbaycan" və "Respublika" qəzetləri, 27 iyun 2018-ci il.
11. Azərbaycanın sosail-iqtisadi inkişafı, 14 yanvar 2020-c il.
12. Azərbaycan ordusu dünyanın ən güclü orduları sırasındadır. "Kaspi"nin təhlili. Oxu.az/politiks/746584 [02.04.2024].
13. Azərbaycanın diplomatik nümayəndəliklərinin siyahısı- Wikipedia-NIN.Az. 10 yanvar 2024-cü il
14. R.T.Ərdoğan. Zəfər paradında nitq / "Azərbaycan" qəz., 10 dekabr 2020-ci il.
15. Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevə / "Respublika" qəzeti, 24 dekabr 2023-cü il.
16. İlham Əliyev. 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə nitq / "Respublika" qəzeti, 14 yanvar 2020-ci il.
17. Azərbaycan Respublkasının Prezidenti Zati-aliləri İlham Əliyevə / " Respublika" qəzeti, 22 dekabr 2020-ci il.
18. 20 ilin sosial iqtisadi inqilabi-dəyişən rəqəmlər inkişafın bariz sübutudur. – https://report.az/analitika/20-ilin-sosial-iqtisadi-inqilabi-deyisen-reqemler-inkisafin-bariz-subutudur/ [02.04.2024].
19. Azərbaycan tarixinin Qızıl 20 ili: rəqəmlərlə təhlil. 27 dekabr, 2023-cü il. - https://www.yeniazerbaycan.com/xeberlenti_e93667_az.html [02.04.2024].

НУРУ МАМЕДОВ
Доктор исторических наук,
профессор Бакинского Государственного Университета

ПОЛИТИКА ПРЕЗИДЕНТА ИЛЬХАМ АЛИЕВА: СИЛЬНЫЙ АЗЕРБАЙДЖАН, НЕЗЫБЛЕМАЯ СТАБИЛЬНОСТЬ И ПОСТУПАТЕЛЬНОЕ РАЗВИТИЕ

В статье раскрываются достигнутые за последнее 20 лет под руководством Президента Азербайджанской Республики Ильхама Алиева фундаментальные успехи. В статье показывается, как под руководством Президента Ильхама Алиева, достойного продолжателя школы общенационального лидера Гейдара Алиева, в результате осуществляемых мероприятий, были достигнуты большие успехи во внутренней и внешней политике Азербайджанской Респуб-

лики, достигнуты незыблемая стабильность и поступательное развитие, превратившие Азербайджан в сильное и могущественное государство.

Ключевые слова: Президент Ильхам Алиев, независимый Азербайджан, социальное развитие, экономика, национальные интересы.

NURU MAMMADOV
Doctor of historical sciences,
professor of Baku State University

PRESIDENT ILHAM ALIYEV'S POLICY: STRONG AZERBAIJAN, UNSHAKABLE STABILITY AND ONGOING DEVELOPMENT

The article reveals the fundamental success achieved over the past 20 years under the leadership of President of the Republic of Azerbaijan Ilham Aliyev. The article shows how, under the leadership of President Ilham Aliyev, a worthy successor to the school of national leader Heydar Aliyev, as a result of the measures taken, great successes were achieved in the domestic and foreign policies of the Republic of Azerbaijan, unshakable stability and progressive development turned Azerbaijan into a strong and powerful state.

Keywords: President Ilham Aliyev, independent Azerbaijan, social development facts, economy, national interests.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 02 aprel 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: t.e.d. İbrahim Zeynalov, t.e.d. Qabil Əliyev.